**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**14 FEVRAL 2022-ci il**
**(online)**

# QƏRAR EŞ № 182

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 39 üzvündən 35 üzvü

## E Ş İ D İ L D İ:

***UNEC rektorunun müşaviri dos. Elşən Bağırzadə***

*Qaydalara dəyişiklik edilməsi haqqında*

## Q Ə R A R A A L I N D I:

1. UNEC Elmi Şurasının 21 yanvar 2021-ci il tarixli 176 saylı qərarı ilə təsdiq edilmiş "UNEC Professoru" vəzifəsi və onun tutulması Qaydalarına müvafiq dəyişikliklər edilməklə yeni redaktədə ***təsdiq edilsin***.
2. UNEC rektorunun müşaviri dos. Elşən Bağırzadə "UNEC Dosenti" vəzifəsi və onun tutulması Qaydalarının layihəsini hazırlayıb iki həftə ərzində UNEC rektoruna təqdim etsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**“TƏSDİQ EDİRƏM”**

**Azərbaycan Dövlət İqtisad**

**Universitetinin rektoru, professor**

**Ə.C.Muradov**

# “UNEC PROFESSORU” VƏZİFƏSİ VƏ ONUN TUTULMASI HAQQINDA

# Q A Y D A L A R

*(ən son əlavə və dəyişikliklərlə*

*14 fevral 2022-ci i protokol№182)*

***UNEC Elmi Şurasının 21 yanvar 2021-ci il***

***tarixli 176 saylı qərarı ilə təsdiq edilmişdir.***

## 1. Qaydaların əhatə dairəsi

Bu Qaydalar "UNEC Professoru" vəzifəsi və onun tutulmasının əsaslarını müəyyən edir.

## 2. "UNEC Professoru" vəzifəsi

"UNEC Professoru", öz sahəsində beynəlxalq səviyyədə tanınan, müasir standartlara uyğun elmi tədqiqatlar aparan və tədqiqat sahəsi üzrə yüksək keyfiyyətli tədris həyata keçirən mütəxəssisdir.

"UNEC Professoru"-nun başlıca vəzifələri aşağıdakılardır:

1) tədqiqat sahəsi üzrə yüksək keyfiyyətli mühazirələr oxumaq, dərslər, təlimlər və imtahanlar həyata keçirmək;

2) yüksək keyfiyyətli tədqiqatlar həyata keçirmək və tədqiqat sahəsinə uyğun olaraq aparılan tədqiqat işlərinə rəhbərlik etmək;

3) tədqiqat sahəsinə uyğun olaraq, magistrların və doktorantların tədris və tədqiqat işlərinə rəhbərlik etmək;

4) təhsil proqramlarının, universitetin və onun struktur bölmələrinin işinin və keyfiyyətinin qiymətləndirilməsində iştirak etmək;

5) yeni nəsil elmi və pedaqoji kadrları hazırlamaq.

## 3. "UNEC Professoru" vəzifəsinin tutulması qaydası

"UNEC Professoru" vəzifəsi seçki yolu ilə 5 il müddətinə tutulur.

Seçki ilə tutulduğu müddət başa çatan, eləcə də vakant professor vəzifələrinə müsabiqə elan olunur. Müsabiqə UNEC-in rəsmi internet səhfəsində elan edilir və müsabiqədə yalnız müvafiq tələblərə cavab verən UNEC əməkdaşları iştirak edir.

"UNEC Professoru" vəzifəsini tutmaq üçün müsabiqədə aşağıdakı namizədlər iştirak edə bilərlər:

1) professor elmi adına və ya elmlər doktoru elmi dərəcəsinə sahib olan UNEC əməkdaşları;

2) ən azı 5 il UNEC-də dosent vəzifəsində çalışan və aşağıdakı tələblərə cavab verən fəlsəfə doktoru dərəcəli UNEC əməkdaşları:

- "Web of Science" və ya "Scopus" bazasına daxil olan nəşrlərdə son 5 ildə ən azı 5 əsər müəllifi (və ya həmmüəllifi) olması[1];
- Yayınladığı əsərlər QS/THE Dünya Reytinqində ilk 600-ə daxil olan universitetlərin ən azı birinin kitabxana kataloquna daxil olan nəşriyyatlarda nəşr edilmiş ən azı 1 monoqrafiya müəllifi (və ya həmmüəllifi) olması[2];
- "Google Scholar" bazasında son beş ildə Hirş indeksinin ən azı 5 olması (özünüistinadlar nəzərə alınmamaqla)[3];
- İngilis dili üzrə ən azı B1 səviyyəyə (ingilis dili müəllimləri üçün C1) sahib olması[4];
- İxtisası üzrə müvafiq verilən təhlili (*"data analysis"*) kompüter proqramlarından (Excel, EViews, SPSS, R və.s.) ən azı birində yetərli istifadə bacarığının olması[5];
- 1-i Azərbaycandan, digəri isə QS/THE Dünya Reytinqində ilk 600-ə daxil olan universitetlərin birindən olmaqla, ən azı 2 professordan tövsiyə məktubunun olması[6].

"UNEC Professoru" vəzifəsinə seçkilər UNEC Elmi Şurası tərəfindən keçirilir.

UNEC Elmi Şurasında "UNEC Professoru" vəzifəsini tutmaq üçün seçkilər Rektorun müvafiq əmri ilə yaradılmış müvafiq Komissiyanın tövsiyəsi əsasında keçirilir.

"UNEC Professoru" vəzifəsinə seçilmiş şəxslər UNEC Rektorunun müvafiq əmri əsasında 5 il müddətinə bu vəzifəni icra edirlər. 5 il tamamlandıqdan sonra həmin vəzifə üçün bu Qaydalara uyğun şəkildə təkrar seçki keçirilir. Təkrar seçkidə seçilməyən namizədlər UNEC-dəki əvvəlki vəzifəsinə qaytarılır.

## 4. "UNEC professoru" vəzifəsinə seçkilərin keçirilməsi proseduru

"UNEC professoru" vəzifəsinin tutulması üçün seçkilər aşağıdakı ardıcıllıqla həyata keçirilir:

---

[1] Qeyd edilən bazaların rəsmi internet səhfələri vasitəsilə müəyyən edilir.
[2] Qeyd edilən reytinq təşkilatının, kitabxananın və nəşriyyatın rəsmi internet səhfələri əsasında müəyyən edilir.
[3] Qeyd edilən bazanın rəsmi internet səhfəsi əsasında müəyyən edilir.
[4] IELTS, TOEFL, PTE Academic və British Council sertifikatlarından biri əsasında müəyyən edilir.
[5] UNEC-də yaradılmış müvafiq ekspert komissiyası tərəfindən müəyyən edilir.
[6] Qeyd edilən professorların rəsmi elektron poçtlarından UNEC-in müvafiq rəsmi elektron poçtlarına daxil olan məktublar əsasında müəyyən edilir.

1) Müxtəlif ixtisaslar üzrə "UNEC professoru" vəzifələri Elmi Şuranın qərarı ilə təsis edilir.

2) "UNEC professoru" vəzifəsinin tutulması haqqında UNEC saytında müvafiq elan verilir. Elan əsasında 30 gün ərzində iddiaçıların ərizələri qəbul edilir.

3) Rektorun əmri ilə yaradılmış müvafiq komissiya iddiaçılar arasından 30 gün ərzində "UNEC professoru" vəzifəsini tutmağa uyğun olanları müəyyən edərək Elmi Şuraya təqdim edir.

4) Elmi Şurada "UNEC professoru" vəzifəsinin tutulması üçün səsvermə keçirilir. Səsvermədən öncə Elmi Şuranın katibi hər bir namizəd haqqında müvafiq məlumatları Elmi Şura üzvlərinin diqqətinə çatdırır.

5) Elmi şuranın iclasında iştirak edənlərin yarıdan çoxunun səsini qazanan nazmizəd "UNEC professoru" vəzifəsinə seçilmiş olur.

Əgər "UNEC professoru" vəzifəsini tutumaq üçün namizədlərin sayı 1-dən çox olarsa və səsvermənin ilk turunda namizədlərdən heç biri iclas iştirakçılarının yarıdan çoxunun səsini qazana bilməzsə, onda ən çox səs qazanmış ilk iki namizəd ikinci tur səsverməyə buraxılır. Səsvermənin ikinci turunda sadə səs çoxluğu ilə üstünlük əldə edən namizəd "UNEC professoru" vəzifəsinə seçilmiş olur.

6) Elmi Şurada "UNEC professoru" vəzifəsinə seçilmiş şəxslər, Rektorun müvafiq əmri ilə bu vəzifəni icra etməyə başlayırlar.

## 5. "UNEC Professoru" statusunun istifadə dairəsi

"UNEC Professoru" UNEC-də professor vəzifəsini tutan digər professorlarla UNEC səlahiyyətləri çərçivəsində bərabər hüquqa və səlahiyyətlərə malikdir.

"UNEC Professoru" statusu əməkdaşın UNEC-də çalışdığı müddətdə keçərlidir.

## 6. Yekun müddəalar

Bu Qaydalar UNEC Elmi Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Qaydalara əlavə və düzəlişlər UNEC Elmi Şurasının müvafiq qərarları ilə həyata keçirilir.